# Yeni şeirlər



## Vaqif Bəhmənli

### BİRLİYƏ DƏVƏT

Savab çəkək, günah çəkək; fincan, dolça, səhəng dolsun!
Təkbir-təkbir min ah çəkək; nəmiş qəmlər bulud olsun -
sular səpsin səhralara!

Bəyaz, yaşıl, sarı kimi - birləşib, gah aralanaq,
Qoşalaşsın tarın simi, mizrab altda sıralanaq -
təskin olaq tənhalara...

İş qalmasın təbiblərə, yar qadasın yar alsın qoy,
Can calayaq cod iplərə; qəzəbindən saralsın qoy
təsbeh-təsbeh kəhrəbalar!

Həyat - birlik, birlik - həyat, gərək çaya dağ - ax, - desin!
Yarat iki yerlik həyat, gödən baxıb Allah desin:
mərhəbalar! mərhəbalar!..

### BOŞ BULUD

Bəlkə dilin batıb, udmusan suluq -
bir kəlmə kəsməzmi yolçu adamla?
Sən ey, ana bulud, hörüklü bulud,
döşündə süd yoxmu beş-altı damla?

Süd deyib mələyən çağanı qoyub
hayana axırsan, başına dönüm?
Quyuyam,
heç susuz olurmu quyu;
rüsxət ver gözünün yaşına dönüm!

Qaralmış bağrımı üzünə bağla,
çox ağsan, qarası küsəndən gəlsin.
Suyu məndən götür,
keşkə sən ağla,
təki bizə yağan su səndən gəlsin.

Di sökül, açılsın kilidli yaxam,
üstünsən, bir az da üstün olarsan.
Bir də dönüb görsən yerimdə yoxam
ah çəkib yanarsan, tüstü olarsan!..

### UĞURSUZ

Bir yazıq tanış var -
qocalıb zorla,
gedəndə
divardan uşaq tək tutur.
Başına tökürlər tərifi xorla,
o da hər tərifdən
döşək tək tutur.

Qıymır qənimətdən sərçə dən yerə,
tum görüb təpilir dibəcən yerə...
Düşmür dimdiyindən bircə dən yerə,
yerə töküləni başaq tək tutur.

Kəsir elə yolunu yolötən adam,
Guya ki, buluddu zatı çən adam!
Bu didilmiş ələk, aşsüzən adam
gur selin ağzını deşik tək tutur.

Hər axşam fincana dişin toplayır,
birin yalan deyir, beşin goplayır...
bəlkə ordu yığır, qoşun toplayır
xırda siçanları pişik tək tutur.

Babat söz görəndə canı qaşınır,
Kirpi tək qabardır pırpız qaşını...
Əlinə kim keçsə üzər başını,
di gəl ki, ovcunu beşik tək tutur.

Özündən qeyrisi sanki ot, ələf,
İçində qarışıq düşübdü kələf,
Aş udub xaş yeyən acgöz naxələf
qırx ildi qələmi qaşıq tək tutur.

O, yalan hakimdi, biz gerçək vəzir -
Xudbinin qisməti didilmiş həsir...
İşrət düşgünüdü, yüzüynən gəzir...
Candan sevdiyini, AŞİQ, tək tutur!

### ANA BAĞ

Mən bağa gəlmirəm ki,
qarışqalar, arılar
gül canıma darışsın.
Mən bağa gəlmirəm ki,
gecələr göyə baxım -
ulduzlar qara hində
ac cücə tək sayrışsın!

Mən bağa gəlmirəm ki,
Manqalda kabab bişsin,
qaynar divarlar kəssin
gözümün qarşısını.

Mən bağa gəlmirəm ki,
məzələnim yarpaqla,
eşələnim torpaqla
bir az başım qarışsın...

Əslində bağım - anam!..
Mən bağa gəlirəm ki,
Başına dörd dolanam,
şad olsun küskün anam;
sovuşsun incikliyi,
durub mənnən barışsın!

### MƏHƏBBƏT FAKÜLTƏSİ

Qırx il keçsə də artıq
getmir könlümdən izi,
Xəyal bu günə dartır
bizim fakültəmizi...

Uşaq çox, bina dardı,
bir yer tutmurdu bizi,
Üç yerdə yeri vardı
bizim fakültəmizin.

Yadındadı, solmuşduq
oxumaqdan, əzizim?
Tələbəsi olmuşduq
bizim fakültəmizin...

"Vostfak", "Yurfak"- qanocaq,
"Jurfak" idi təmizi!
İmiciydi qanacaq
bizim fakültəmizin...

Qonşu binada - "Narxoz";
məktəblərin qəlizi...
sayırdılar çürük qoz
bizim fakültəmizi.

Hamının qiyməti "beş",
hamının gülür üzü,
"Kafi"sin görmədik heç
bizim fakültəmizin.

... Ömür xəzri, giləvar -
can tərpədir dənizi.
Ayrı bir sirri də var
bizim fakültəmizin!

Orda təhsillə birgə
kəşf etdik sevgimizi.
Seçdik qayığa yelkən
bizim fakültəmizi.

Cida çuvalda qalmaz -
cin görsə ikimizi...
ağzını yummaq olmaz
bizim fakültəmizin.

Xəlvət düşdüm arxanca
düz beş il dizin-dizin...
"Dekanı" səndin ancaq
bizim fakültəmizin.

Ali təhsil hünərdi -
dənən, hə, iki gözüm,
Məhsulu nəvələrdi
bizim fakültəmizin.

"Ailə kafedrası"
yaratmışıq, əzizim,
üstündə var duası
bizim fakültəmizin...

*Davamı səhifə 17-də*

*(Əvvəli səhifə 16-da)*

## ADBAAD

Gəldi nəvəm İsgəndər;
töküldü çoxlu qanlar -
qırıldı istəkanlar...
İsgəndər eeh... İsgəndər...
Verin ATƏT-ə xəbər
məhləm oldu dərbədər!

Gəldi nəvəm Səfurə -
qara geydi ağ süfrə,
alnıma dəydi küftə...
Səfurə, eeh... Səfurə -
Sazişi vurdu yerə -
Nota verdik səfirə!
Gəldi nəvəm Elmira
mərcan diş - sıra-sıra,
çatma qaşları qara!
Elmira, eeh... Elmira -
yaraşıqdı paltara,
Küsməyi dərin yara,
gülməyi dərdə çara...

Bu da Səfərdi, Səfər -
hərəkət, işlək təkər!
Xatirinə dəyənin
vurub gözünü tökər.
Səfər, Səfər, eeh... Səfər;
gəldi, fikrim dağıldı.
Deyil sıradan nəfər
məhləmin bayrağıdı...

Gözüm Nəzrini gəzir -
görünmür gül səbəti,
uzaqdı Ağcabədi...
Eeh... Nəzrin, Nəzrin...
Bir az fikir çəkəndi
hamı sola çəkəndə
Nəzrin sağa çəkəndi...

Gələn çox, darvazam dar -
qarşılayım, ötürüm...
Hələ Sübhanım da var;
qapı aça bilmir o -
oğulluğa götürüb
onu Allah əbədi...

## RƏHİLƏNİN QOCALIĞI

Hərdən mat qalıram
əməllərinə baxıb -
evin içində sirsən...
Gah gilas bişirirsən,
gah ərik bişirirsən...
Üzün yanıq kündədi,
hisdən qaralıb don da.
Fərqinə varmırsan heç
aləm öz kefindədi
bulvarda, ya salonda...
Sənsə, odda bişərək
Candan şirəni sıxıb
qışa ehtiyat üçün
alma, heyva, gavalı,
tut tutursan balonda...
Bizə nə qalır sonda? -
Şirəli ləyən, qaşıq,
"vay ürəyim, bay başım..."
Mərəkə qopur onda!

## BOLŞUQ

Qala qurduq,
yıxdı həyat -
yasa döndü büsatımız.
Vədə xilaf çıxdı həyat,
heç gülmədi həyatımız...

Qaya qarğış, gen dərə - kin;
yol bulmağa savad yoxdu.
Gərək varım o yerə ki,
O yerlərdə həyat yoxdu!

## ÖLÜM HÖKMÜ

əlbəttə, məhəbbət ayrı düzgüdü
onu olduğu tək yoza bilmirəm.
Dəyirmi, dik alnım əyri güzgüdü
ora düz eşqimi yaza bilmərəm.

Üstümə gəlirsən bədən uçunur -
Mən azam,
sən isə qoşun tək çoxsan.
Həsrət qalasını nədən uçurum,
bəlkə o qalanın içində yoxsan?!

Nədən bəs eləmir,
dərhal tükənir
gözümdən səpilən dən bu sevgiyə?
Gizli saxlayıram yad uşaq kimi,
ata axtarıram mən bu sevgiyə...

Mən sənin şeirini yaza bilmirəm,
dənim yelə gedir, ələkdən çıxmır.
Sinəmi yarsa da cərrah tək qələm
bətnimdə qalır söz, bələkdən çıxmır!

Başımı qatıram gizli qəmimlə -
Qul olmaq nə gərək çölün hökmünə?
Axı öz əlimlə, öz qələmimlə
necə imza atım ölüm hökmünə?

## QAYNAR ÇAY

Boğuluram tənbəkidə,
külqabıtək yanır içim.
Çayçı, dərin nəlbəkidə
soyuq dərd tök,
qaynar içim!

## MƏNCƏ

Şükür ki, müşkülün lap pisi vardır -
Bildin, ya bilmədin,
bələdi şəksiz.
Kimin ki, didərgin Əslisi vardır
Onun yol yoldaşı
Lələdi şəksiz.

Yansam, yenə oda can atlanacaq -
Yerdə qalan külüm can adlanacaq.
Bülbülə nə var ki,
Qanadlanacaq -
Solmağın cəfası güllədi şəksiz.
Sevda zərbi salmaz bədənə qançır -
O ehmal sürünüb ürəyi sancır...
Topuğu boğaza bağlayan zəncir
Düşdüyüm ən rahat tələdi şəksiz.

Eşq ilə bərabər çatdım goruma,
Bilmədim tövşümək, nə də yorulmaq...
Məhəbbət ehramdı -
yaxşı qorunan,
Divarı yarılmaz qaladı şəksiz.

Mətləbə qiyməti verirəm dəqiq,
Gizli bərələrdən keçirəm dik-dik.
Böyrümdə-başımda tullanan rəqib
Ovçuya vəfalı tuladı şəksiz...

## ÜÇ QİYAFƏ, BİR YOL

Mən səni
üç şəkildə sevirəm -
Dost kimi,
ata kimi,
otuz beş yaşlı
Vaqif Bəhmənli kimi...

Qərar səníndi -
hansı şəklimi bəyənsən
ona yaraşan
paltar geyəcək yolumuz!

## QAFİYƏLƏR

Sözlərin...
eşitmədiyim!
Gözlərin...
içində itmədiyim!
Dillərin..
dadmadığım!
Yanaqların...
toxunmadığım!
Üreyin...
oxumadığım!
Qamətin...
kölgəsizliyim!
Qədəmin...
ölkəsizliyim!
Xəyalın...
unutmadığım!
Gecələrin...
yatmadığım!
Səhərlərin...
qıymadığım sənə,
yuxudan oyatmadığım
səni!

## YOXLUĞUN VARLIĞI

Rəhm et
bir dəfə də
ağlat şairi! -
yerimə şeir yaz
bircə dəfə də.
Başıma daş yağdır qayadan iri,
qoşun çək,
mən durum müdafiədə.

O kimdi,
dad çəkib inləyən axmaq -
zülmünün yanında heçdi vüsalın.
istər üzümə bax,
istərsə baxma -
sən varsan deməkdi hər hansı halın.

Məni dizin-dizin
süründürməkdi
O uzaq talada tənha bitməyin.
Gözə görünm'yin varsan deməkdi,
Gözə görünməkdi
gözdən itməyin!

Səsin heç, hənirin yol açar kora -
bu dünyam, o dünyam,
mütləq vətənim!
Cənnətdə olmasan,
tüpürüb ora,
gedib cəhənnəmdə taparam səni...

## SƏNİN SƏSİN

Sənin səsin...
küləyin səsidi bir az,
İstidi, ətirlidi -
çörəyin səsidi bəlkə?

Sənin səsin...
gorda da unudulmaz,
sirlidi, fikirlidi -
mələyin səsidi bəlkə?

Sənin səsin... yumşaq,
çağalarcan incə,
beşik tərpənişi,
bələyin səsidi bir az...

Sənin səsin... eşidilmir
döyünür məncə;
qan dövranıdı,
ürəyin səsidi bəlkə?

## HAVALI ŞEİR

At kimi yortma,
yaxanı yırtma,
özünü yorma, külək,
ürəyimi demirəm,
köynəyimi qaldıran
küləyimcə deyilsən!

Daşın xınalı kəklik,
Döşün analı əlik,
Dayanmısan, qaya, dik...
Ruzgardan didik-didik
ürəyimcə deyilsən!

Xeyir tapmaz odlu baş...
Alışma atəş-atəş -
qızarıb yanma, Günəş,
qəlbi nur, üzü güləş
mələyimcə deyilsən!

Qısa əl, uzaq ətək -
qalacaqsan mənim tək...
fırlanma çərxi-fələk,
qəmi-qəmdən ayıran
ələyimcə deyilsən!

Yalan susqun, doğru mat,
kimə gərək yorğun at?
Rədd ol gözümdən, həyat,
heç nəyimcə deyilsən!

## YAŞ

Qırx, əlli... qutuda;
bitmiş yeriyir,
Əriyib su olur, yox olur altmış,
indi də
üstünə yetmiş yeriyir -
sən hara baxırsan,
ay başı batmış?..